

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 131 (21.541)

*19 iyul 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin iyulun 18-də rəsmi yolasalma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Gənclər və idman naziri Azad Rəhimov, yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandasının məşqçisi Akif Əliyev, paralimpiyaçı İlham Zəkiyev, yunan-Roma güləşçisi Rəsul Çunayev çıxış ediblər.

Sonra Rio Olimpiadasına gedən idmançılarımız Olimpiya andını içiblər.

Daha sonra idmançılar Azərbaycanın dövlət bayrağını öpüblər.

Prezident İlham Əliyev onlara xeyir-dua verərək uğurlar diləyib.

Mərasim başa çatdıqdan sonra Prezident İlham Əliyevə XXXI Yay Olimpiya Oyunlarında atletlərimizin geyinəcəyi idman forması təqdim olunub.

Bildirilib ki, bütün idmançılarımız "Zika" virusu əleyhinə dərman vasitələri və digər tibbi ləvazimatlarla təmin olunub.

Sonda Prezident İlham Əliyev idmançılarla xatirə şəkli çəkdirib.

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasının çağırılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

### Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyası 2016-cı il iyul ayının 22-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları

2. Naxçıvan Muxtar Respublikasının 2015-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

3. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)" haqqında Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 iyul 2016-cı il*

*"Muzey günləri"nin tərtib olunması müxtəlif təşkilatların kollektivlərinin muxtar respublikada, eləcə də Naxçıvan şəhərindəki muzeyləri ziyarət etməsinə, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi və milli dəyərlərimizi özündə yaşadan eksponatlarla əyani tanış olmasına şərait yaradıb.*

## "Muzey günləri" davam etdirilir



Bu tədbirlərin davamı kimi iyulun 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində olublar.

Burada ziyarətçilərə məlumat verilib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan milli mədəniyyətimizin inkişafına təkcə tarixi-memarlıq abidələri ilə deyil, həm də zəngin xalçaçılıq ənənələri ilə töhfə verib. Naxçıvanın iqlimi, füsunkar təbiəti burada palaz, kilim, sumax, vərni, şəddə, zili və cecim kimi xalça növlərinin toxunmasına, ümumilikdə isə xalçatoxuma sənətinin inkişaf etdirilməsinə imkan verib. Son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, bu mədəni irsimizin qorunması və təbliği işinə diqqət artırılır. Görülən işlər milli xalçaçılıq sənətinin yaşadılmasına və bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul olub. 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilib, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3000-dən çox eksponat vardır ki, bunlardan 300-ə yaxını ekspozisiyada nümayiş etdirilir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri də Naxçıvan Dövlət Xalça Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin kollektivləri "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri isə Nəbatat bağında olublar.

## Dövlət qulluğuna ixtisas biliklərinə malik, vətənpərvər, geniş dünyagörüşlü kadrların seçilməsi diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri 2016-cı ilin 6 ayı ərzində də davam etdirib.***

Bu dövrdə dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilib, dövlət orqanlarının qanunvericiliyə uyğun olmayan 4 qərarı ləğv etdirilib.

Komissiyadan aldığımız məlumatda bildirilir ki, Naxçıvan Muxtar Respublikasında mərkəzləşdirilmiş qaydada vətəndaşların dövlət qulluğuna qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi təşkil edilib. Dövlət qulluğuna yüksək şəxsi keyfiyyətlərə və ixtisas biliklərinə malik, vətənpərvər, geniş dünyagörüşlü, yaradıcı kadrların seçilməsi 2016-cı ilin 6 ayı ərzində də komissiyanın əsas fəaliyyət istiqamətlərindən biri olub.

Dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün komissiya tərəfindən 20 fevral 2016-cı ildə elan edilmiş müsabiqəyə 36 dövlət orqanından 294 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 634 nəfər sənəd təqdim edib. Müsabiqədə müvəffəqiyyət qazanmış 84 namizəddən 68-nin sənədləri iddia etdikləri vəzifəyə təyin olunmaq üçün dövlət orqanlarına göndərilib. Həmin şəxslərdən 67-si vəzifəyə təyin olunub, 1 namizəd isə təklif olunan vəzifədən imtina edib. 16 namizəd ehtiyat kadr siyahısına salınıb.

Dövlət statistika orqanlarında inzibati vəzifələrin yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün komissiya tərəfindən 6 iyun 2016-cı ildə elan edilmiş müsabiqəyə 201 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 213 nəfər sənəd təqdim edib. Müsabiqənin test imtahanları mərhələsində iştirak edən 205 namizəddən 180-i keçid balını toplaya bilib. Hazırda müsahibə mərhələsi üçün sənəd qəbulu davam edir.

Komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanlarının keçirilməsinə köməklik göstərilib. Bu il yanvarın 26-da Naxçıvan Muxtar Respublikası Prokurorluğu üzrə vakant vəzifələrin tutulması üçün keçirilmiş test imtahanlarında iştirak edən 29 namizəddən 12-si, fevralın 22-də Vəkillər Kollegiyası üzrə iştirak edən 19 namizəddən 18-i keçid balını toplayıb.

Hesabat dövründə ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılıb, ehtiyat kadrlar siyahısına daxil edilmiş 9 namizəd dövlət orqanlarında analoji vakant vəzifələrə təyin olunub.

Komissiya tərəfindən dövlət qulluqçularının idarə edilməsinə dair mərkəzləşdirilmiş məlumat bazasının inkişaf etdirilməsi və ondan səmərəli istifadə olunması təmin edilib. Cari ilin birinci yarısında muxtar respublikada fəaliyyət göstərən dövlət qulluqçularının Dövlət Qulluqçularının Reyestrinə daxil edilməsi başa çatdırılıb, 2436 dövlət qulluqçusu barədə məlumatlar reyestrə işlənilib.

Komissiyanın test bazasının yeni suallarla zənginləşdirilməsinin və testlərin ekspertizasının davam etdirilməsi də diqqətdə saxlanılıb. Bu dövrdə "Qanunvericilik", "İnformasiya texnologiyaları" və "Dünyagörüşü" blokları üzrə 700 test sualı işlənib hazırlanıb. Test tapşırıqlarının ekspertizası Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin ekspertləri və Naxçıvan Dövlət Universitetinin müəllimləri tərəfindən həyata keçirilib.

Elektron xidmətlərin göstərilməsi də diqqət mərkəzində saxlanılıb. Komissiya tərəfindən "Dövlət qulluğuna qəbul üzrə qeydiyyat üçün müraciətin və sənədlərin qəbulu" elektron xidməti üzrə 2016-cı ilin 6 ayında elan edilmiş 5 müsabiqədə iştirak edən 918 nəfərə komissiya tərəfindən elektron xidmətlər göstərilib. Sənəd qəbulunun elektron formada təşkil edilməsi nəticəsində vaxta, kağız daşıyıcılarına və sənəd qəbulunu həyata keçirən işçi qüvvəsinə qənaət edilib.

## Naxçıvanda növbəti əmək yarmarkaları keçiriləcək

Məşğulluq problemlərinin həll olunmasında ildə 4 dəfə təşkil edilən əmək yarmarkalarının da böyük rolu var. Bu məqsədlə muxtar respublikada fəaliyyət göstərən məşğulluq orqanları tərəfindən əvvəlcədən işəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən verilən məlumata görə, iyulun 26-dan muxtar respublikada növbəti əmək yarmarkalarına start veriləcək. Həmin gün ilk tədbir Sədərək rayonunun Heydərabad qəsəbə Mərkəzində təşkil olunacaq. İyul ayının 27-də Kəngərli Rayon Məşğulluq Mərkəzində bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. İyulun 28-də keçiriləcək əmək yarmarkasının ünvanı Şahbuz şəhərindəki "Araz" kinoteatrının binası olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından iyulun 29-da yararlana biləcəklər. Avqustun 2-si ordubadlılara, 3-ü babəklilərə, 4-ü isə şərurlulara boş iş yerləri təqdim olunacaq. Naxçıvan şəhərində əmək yarmarkası avqust ayının 5-də "Gənclik" Mərkəzində keçiriləcək.

Qeyd edək ki, əmək yarmarkalarının təşkil olunması Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və onun rayon mərkəzləri tərəfindən həyata keçirilir.

**Xəbərlər şöbəsi**

# “Karbon Qazı Zavodu” MMC-yə “eniş edən layner”

## *Yaxud müəssisənin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən yeni layihə*





***Muxtar respublikamıza gələn qonaqlar daha çox təbiət mənzərələri ilə “ünsiyyətdə” olmağa can atırlar. Elə mənim Rusiyadan gələn qonaqlarım da Ordubada getməyi, qoşa çinarın altında bir stəkan çay içməyi təklif etdilər.***

Onların bu təklifi ilə razılaşıb yola düşdük. Yolboyu quruculuq ərməğanlarını maraqla seyr edən qonaqların, – bu nə binadır, bu tikili nə vaxt istifadəyə verilib və sair kimi suallarına cavab verə-verə Culfa şəhərinin kənarından keçib üz tutduq Ordubada. Təqribən, 10 dəqiqəlik yol getmişdik ki, qonaqlardan biri qırmızı-qonur rəngə çalan dağların sinəsində, qum-çınqılın üstündə salınmış üzümlüyün və meyvə bağının əhatəsində yerləşən binanı göstərərək:

– Bu tikili nədir? – deyə soruşdu.

– Elə yol üçün tədarük etdiyimiz “Badamlı”nın, “Sirab”ın, “Prestij”, “Qızıl su”, “Fitonad” limonadlarının, Bakıda içdiyiniz “Slavyanka”nın və digər mineral suların tərkibinə vurulan təbii karbon qazı istehsal edilən zavoddur, – dedim.

Qonaq təəccübünü gizlətmədi: –Bura istehsal müəssisəsindən daha çox istirahət mərkəzini xatırladır, – dedi.

Söhbətimizə qoşulan digər qonaq isə müəssisənin həyətində qurulmuş böyük bir qurğunu göstərib, – “layner”ə oxşar bu qurğu nədir? – deyə məndən soruşdu. – Dəfələrlə bu müəssisədə olmuşam, ancaq bu “layner”i görməmişəm. Bu, yenilikdir, – dedim.

Beləcə, Ordubad səfərimizdən sonra “layner” sorağı ilə üz tutdum “Karbon Qazı Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətinə.

Culfa şəhərindən 2 kilometrlik məsafədə, Culfa-Ordubad magistral yolunun kənarında yerləşən, sanki rəssam fırçası ilə kətan üzərinə köçürülmüş bir rəsm əsərini xatırladan, quruculuq ərməğanlarının təbiət mənzərələri ilə həmahənglik təşkil etdiyi ünvana – “Karbon Qazı Zavodu” MMC-yə yaxınlaşdıqda ecazkar bir mənzərənin sehrinə düşdük. Səliqə-sahmanı ilə gözoxşayan bu istehsal müəssisəsi neçə il bundan əvvəl istifadəyə verilməsinə baxmayaraq, sanki bu gün təhvil verilib. Qurulub-yaradılanlar qorunub, gülzarlıqlara, yaşıllıqlara yüksək səviyyədə qulluq edilib. Müəssisənin ətrafındakı, əvvəllər quru səhranı xatırladan geniş bir ərazi gülüstana çevrilib – 2,5 hektar sahədə meyvə bağı, 4 hektar sahədə isə üzümlük salınıb. Artıq ötən ildən nubarına məhsul da götürülüb. İnsanda xoş ovqat yaradan müəssisənin qarşısında dayanan nəzarətçidən direktoru soruşduq.

– Odur gəlir, – dedi.

Yaxınlaşan Elman Seyidov: – Xoş gəlmisiniz. Buyurun keçin. Nə yaxşı yolunuzu bu tərəfə salmısınız? – deyə soruşdu.

– “Layner”ə baxmağa gəlmişik, – dedim. Güldü.

– Özünüz yaxşı bilirsiniz ki, bu müəssisədə maye karbon qazı istehsal olunur. Bura nə hava limanı, nə də təyyarə istehsal edən zavoddur. Culfa-Ordubad magistralından keçərkən zavodun ərazisində görünən “layner”ə oxşar qurğu isə müəssisənin istehsal etdiyi təbii karbon qazının saxlanılması və istehsal olunan məhsula artan tələbatın ödənilməsi ilə əlaqədar həyata keçirilən qabaqlayıcı tədbir olaraq Türkiyənin “Karbonsan” LTD şirkətindən alınıb gətirilmiş böyük bir qurğudur. Amma bu, adi qurğu deyil, müasir texnoloji avadanlıqlarla təmin edilmiş bir qurğudur, – deyib bizi “layner”in yanına apardı. Bu da sizin dediyiniz, qapısı, pəncərəsi, təkərləri, bir də qanadları olmayan dəmir-beton sütunlar üzərində qərar tutan “layner”, – deyən Elman Seyidov qeyd etdi ki, uzunluğu 30 metr, ağırlığı 50 ton, ümumi tutumu 200 ton maye karbon qazı olan, istiyə, soyuğa davamlı 20 santimetr qalınlığında, xüsusi izolyasiya ilə örtülmüş bu qurğu yüksək təhlükəsizlik avadanlıqları ilə təmin olunub. Çəndə olan maye karbon qazının təzyiqi müəyyən olunmuş normadan aşağı düşdükdə qızdırıcı, yuxarı qalxdıqda isə soyuducu avtomatik olaraq işə düşərək tənzimlənir. Eyni zamanda sistemdə hər hansı bir nasazlıq yaransa belə, qurğuda yerləşdirilmiş klapanlar avtomatik olaraq açılıb təzyiqi normallaşdırır, təhlükəsiz həddə salır. Əvvəllər müəssisədə istehsal olunan maye karbon qazı hər biri 12 ton olmaqla, 2 ədəd çəndə saxlanılır, xüsusilə mövsümdə artan tələbatın ödənilməsində müəyyən çətinliklərlə üzləşirdiksə, cari ilin may ayında yeni qurğunun istifadəyə verilməsi ilə nəinki çətinlik aradan qaldırılıb, hətta kifayət qədər ehtiyat da yaratmaq imkanı əldə edilib. Bu da həm daxili bazarın tələbatını ödəməyə, həm də xarici bazara mal ixrac etməyə imkan yaradıb. Onu da qeyd edək ki, yeni qurğunun yerləşdiyi əraziyə mövcud sistemdən əlavə xətt çəkilib. Elektron tərəzi ilə təmin edilmiş qurğu daxil olan və ya götürülən məhsulun miqdarına mütəmadi olaraq nəzarət etməyə imkan verir. Qurğuda yerləşdirilmiş avadanlıqların iş prinsipini izləmək üçün hər cür şəraitə malik nəzarət məntəqəsi də tikilib istifadəyə verilib. Qaldı ki müəssisə haqqında ümumi məlumata, onu da müəssisənin yeməkxanasında bir stəkan çay içə-içə yazarsınız, – deyib bizi çay süfrəsinə dəvət etdi. Elman Seyidovun dediklərindən:

– Muxtar respublikanın bütün təbii ehtiyatlarından səmərəli istifadə olunmaqla daxili bazarın tənzimlənməsində, tələbatın yerli istehsal hesabına ödənilməsində və idxaldan asılılığın azaldılmasında, xaricə valyuta axınının qarşısının alınmasında, əhali tələbatının daha dolğun ödənilməsində yerli istehsalın əvəzsiz rolu nəzərə alınaraq kompleks tədbirlər həyata keçirilib, yeni istehsal və xidmət sahələri yaradılıb. Belə istehsal sahələrindən biri də Culfa rayon ərazisində fəaliyyət göstərən “Karbon Qazı Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Özəl bölməyə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib, Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib. İkimərtəbəli inzibati və istehsal binalarından ibarət olan müəssisədə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Qaz mənbəyindən zavodadək 2650 metr boru xəttində təmir işləri görülüb. Müəssisədə Rusiya və Ukraynadan alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb ki, bu, görülən işin daha keyfiyyətli, sürətli və yüksək səviyyədə aparılmasına imkan yaradıb.

Məlumat üçün qeyd edək ki, muxtar respublikanın maye karbon qazına olan illik tələbatı 2800 tondur. İllik istehsal gücü 6300 ton maye karbon qazı və 50 ton quru buz olan müəssisədə istehsal edilən məhsul ölkəmizin digər regionlarında da satışa çıxarılır və gələcəkdə xaricə ixrac olunması planlaşdırılır. Maye karbon qazını daşımaq üçün 2 ədəd 12 tonluq və 1 ədəd 6 tonluq avtosisternlərdən, eləcə də 2009-cu ildə alınmış soyuducu kameralı “Mitsubishi” markalı quru buzdaşıyan texnikadan səmərəli istifadə olunur. Həmçinin burada istehsal olunan məhsullara artan tələbatın ödənilməsi üçün İsveçin “SKAYNA” firmasının istehsalı olan 2 ədəd çəkici avtomaşın və Türkiyənin “ISISAN” firmasının istehsalı olan yüksək texniki göstəricilərə malik 2 ədəd avtosistern alınıb gətirilib. Bu da məhsulun vaxtlı-vaxtında sifarişçilərin ünvanlarına çatdırılmasına əlverişli şərait yaradır.

Müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən məhsulun keyfiyyətinə nəzarət etməyə imkan verir. Xammalın qəbulundan satışa çıxarılmasınadək bütün texnoloji proseslərə, istehsal olunan karbon qazının, quru buzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Maye karbon qazı 6 kiloqramdan 25 kiloqramadək müxtəlif çəkilərdə balonlarda və çənlərdə, quru buz isə xüsusi taralarda sifarişçilərin ünvanlarına göndərilir. Maye karbon qazı və quru buz mineral sular, sərinləşdirici içkilər istehsal edən müəssisələr, tibb ocaqları, ərzaq məhsullarının istehsalı və daşınması ilə məşğul olan şirkətlər tərəfindən rəğbətlə qarşılanır. Elə bu səbəbdəndir ki, istehsal olunan məhsullara tələbat artır, quru buz sifarişə uyğun olaraq Bakı şəhərində fəaliyyət göstərən şirkətlərə də göndərilir. Müqayisə üçün qeyd edək ki, “Karbon Qazı Zavodu” MMC əvvəllər ölkəmizin digər regionlarında fəaliyyət göstərən 7-8 müəssisəyə və ya şirkətə karbon qazı satırdısa, hazırda bu rəqəm 40-ı ötüb.

Bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal etmək əzmi ilə çalışan kollektiv maye karbon qazı və quru buza artan tələbatın ödənilməsi üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir, istehsal edilən məhsul sifarişə uyğun olaraq ayrı-ayrı şirkətlərə, müəssisənin Bakı və Qax şəhərlərində fəaliyyət göstərən balondoldurma məntəqələrinə vaxtında çatdırılır. Hazırda tələbata uyğun olaraq istehsal edilən məhsulun 22,8 faizi muxtar respublikada, 77,2 faizi isə Bakı şəhərində və ölkənin digər regionlarında fəaliyyət göstərən sifarişçi müəssisələrə göndərilir.

“Muxtar respublikamızda istifadə olunmuş və ya istifadə müddəti bitmiş ilkin yanğınsöndürmə cihazlarının təmiri və doldurulması sahəsi də 2015-ci ildən fəaliyyətə başlayıb”, – deyən cəmiyyətin direktoru onu da bildirdi ki, istehsal və xidmət sahələri üçün əlverişli şərait yaradılıb, Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar və yanğınsöndürmə cihazlarının təmiri və doldurulması üçün lazım olan ayrı-ayrı hissələr və kimyəvi xammal alınıb gətirilib.

Burada 1, 2, 4, 5, 12, 25, 50 kiloqramlıq balonlarda quru kimyəvi tozlu, köpüklü və karbon qazlı ilkin yanğınsöndürmə cihazlarının müasir avadanlıq və materiallardan istifadə olunaraq keyfiyyətli dolumu və hər cür texniki xidmətin göstərilməsi üçün əlverişli şərait yaradılıb. İstifadə edilən hər növ ilkin yanğınsöndürmə cihazlarının işlək vəziyyətə gətirilməsi, yoxlanılması, doldurulmasına aid olan bütün texniki yardım, məlumat və sorğuya ehtiyac yarandığı halda, müəssisəyə müraciət edib bu sahə üzrə çalışan təcrübəli mütəxəssislərin köməyindən istifadə etmək olar.

Onu da qeyd edək ki, əvvəllər ayrı-ayrı idarə, müəssisə və təşkilatlar, hüquqi və fiziki şəxslər istismar müddəti bitən yanğınsöndürmə cihazlarını təmir və yenidən doldurulması üçün xarici dövlətlərə aparırdılar. Bu da vaxt itkisi və əlavə maliyyə vəsaiti tələb edirdi. Yeni istehsal sahəsinin fəaliyyətə başlaması ilə bu problem aradan qaldırılıb. Sifarişçilərin müəssisəyə təqdim etdikləri yanğınsöndürmə cihazları qeydiyyata alınıb test avadanlığında 27 atmosfer təzyiqlə yoxlanıldıqdan sonra doldurulur. Baş verə biləcək yanğın hadisələrinin vura biləcəyi ziyanın vaxtında qarşısının alınması üçün ayrı-ayrı idarə, müəssisə və təşkilatlarda olan ilkin yanğınsöndürmə cihazlarının işlək vəziyyətdə olması mühüm amillərdən biridir.

✍ **Kərəm HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 aprel 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması qaydası” yerli istehsal müəssisələrimizin fəaliyyətini stimullaşdırmaqla dövlət vəsaitindən səmərəli istifadəyə, müəssisə və təşkilatların vaxtında ərzaq məhsulları ilə keyfiyyətli və davamlı təchizatına zəmin yaradıb, məhsulların təhlükəsizliyinə və keyfiyyətinə nəzarət sisteminin müasir tələblər səviyyəsində həyata keçirilməsinə imkan verib.*

# Dövlət müəssisə və təşkilatları keyfiyyətli ərzaq məhsulları ilə mərkəzləşdirilmiş qaydada təmin edilir

Muxtar respublikada istehsal olunan yerli məhsulların xarici bazarlara çıxarılması, sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb. Dövlət müəssisə və təşkilatlarının ərzaq məhsulları ilə mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına təminatı, ərzaq məhsullarının istehsalçılarından məhsulların alışını və tədarükünü təşkil etmək, satıcılara çatdırılması bu müəssisə tərəfindən həyata keçirilməkdədir.

Ərzaq mallarının alqı-satqısının mərkəzləşdirilmiş qaydada “Naxçıvan Məhsulları” MMC tərəfindən həyata keçirilməsi qida sektorunda rəqabətin genişləndirilməsinə, kiçik və orta biznesin inkişafına, dövlət büdcəsindən səmərəli istifadəyə şərait yaratmaqdadır.

Bu istiqamətdə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən müəssisə və təşkilatların ərzaq təchizatının hər bir müəssisə üzrə menyusu hazırlanıb və təsdiq olunub.

Müəyyən edilmiş menyuya müvafiq olaraq hər bir müəssisə üzrə məhsulların təchizat cədvəli hazırlanıb. Mərkəzləşdirilmiş qaydada dövlət vəsaiti hesabına maliyyələşdirilən dövlət müəssisə və təşkilatlarına təchiz olunacaq məhsulların siyahıları dürüstləşdirilib, müəssisələrin, ilk növbədə, yerli istehsal, digər halda idxal məhsulları hesabına təchizatı həyata keçirilib. Hazırda təchizat üçün müəssisəyə tədarük olunan məhsullar soyuducu kameralarda saxlanılır və buradan paylanılır.

2016-cı ilin may ayından başlayaraq “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən muxtar respublikada fəaliyyət göstərən 48 qapalı müəssisənin 281 çeşiddə ərzaq və qeyri-ərzaq məhsulları ilə keyfiyyətli təchizatı təmin edilib. Təchizatda yerli məhsulların payının 91,1 faizini ərzaq, 41,2 faizini qeyri-ərzaq məhsulları təşkil edib.

2016-cı ilin iyun ayında muxtar respublikada fəaliyyət göstərən 18 müəssisədən ərzaq və qeyri-ərzaq məhsulları alınıb, hər bir məhsul üçün istehsalçı şirkətlərdən gigiyenik və uyğunluq sertifikatları alınaraq təchizat zamanı məhsulun üzərində müəssisə və təşkilatlara təqdim edilib. Bu istiqamətdə həyata keçirilən tədbirlər, ilk növbədə, yerli müəssisələrimizin fəaliyyətinin stimullaşdırılmasına köməklik göstərməkdədir.

Hər bir cəmiyyətin həyat və sağlamlığı qidalanma ilə sıx bağlı olduğundan ərzaq məhsulu milli genofonda, sağlam nəsil artımına təsir edən mühüm amildir. Muxtar respublikada insan amilinə göstərilən yüksək qayğının nəticəsidir ki, ərzaq məhsullarının təhlükəsizliyinin təmin edilməsi daim diqqət mərkəzində saxlanılır.

Ərzaq məhsullarının keyfiyyətinə nəzarət məqsədilə yaradılmış müasirtipli, yüksək maddi-texniki bazaya və kadr potensialına malik olan, beynəlxalq akkreditasiyadan keçirilmiş “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC bu istiqamətdə mühüm rol oynayır.

İctimai iaşə obyektlərində istifadə edilən məhsulların keyfiyyətinə nəzarətin həyata keçirilməsi məqsədilə “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC tərəfindən 2016-cı ilin ötən dövründə 99 halda unlu-qənnadı, alkoqolsuz içkilər və süd məhsullarından nümunələr götürülərək laboratoriya analizləri aparılıb və nümunələrin keyfiyyət göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyən edilib.

“Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması qaydası” ərzaq təchizatı ilə bağlı bir sıra problemlərin həllinə təkan verməklə, istehsal və tədarük sisteminin inteqrasiyasını gücləndirir. Yeni qurumun yaradılması muxtar respublikada ərzaq məhsullarının tədarükü və təchizatı prosesini xeyli asanlaşdırıb. Ən başlıcası isə ərzaq məhsullarının istehsalçıları ilə istehlakçıları arasında yeni formatda qarşılıqlı əlaqə yaranıb. Bundan sonra da büdcə təşkilatları üçün lazım olan ərzaq məhsulları mərkəzləşdirilmiş qaydada və şəffaf sistem üzrə təmin ediləcək.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



# Qarabağlar Türbə Kompleksinə ikinci həyat verilir

***Naxçıvan Muxtar Respublikasında yerləşən tarix və mədəniyyət abidələri yalnız Azərbaycan tarixi üçün deyil, həm də Yaxın Şərq və Cənubi Qafqaz tarixinin öyrənilməsi üçün əhəmiyyətlidir. Muxtar respublikamızdakı bir çox tarixi abidələr dünyada bənzəri olmayan mədəniyyət inciləridir. Belə mədəniyyət incilərindən biri də Qarabağlar Türbə Kompleksidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında 4 iyul 2016-cı il tarixdə Sərəncam imzalamışdır.***

Qarabağlar Türbə Kompleksi orta əsr Azərbaycan memarlığının nadir sənət əsərlərindəndir. Şübhəsiz ki, belə mədəniyyət inciləri birdən-birə yaranmamış, mədəni inkişafımızın nəticəsi olmuşdur. Araşdırmalara əsaslanaraq demək olar ki, nadir konstruksiyalı memarlıq abidələri Naxçıvanda hələ Eneolit və Tunc dövrlərindən başlayaraq inşa olunmuşdur. Tədqiqatlar göstərir ki, Kəngərli rayonunun ərazisi, o cümlədən Qarabağlar kəndi Azərbaycanın dünya əhəmiyyətli tarix-mədəniyyət abidələrinin qruplaşdığı əsas regionlardan biridir.

Qarabağlar kəndinin ərazisində aşkar olunan ən qədim abidələr hələlik Eneolit dövrünə aid olsa da, burada daha qədim abidələrin aşkar olunacağı gözlənilir. E.ə. III minillikdən başlayaraq Qarabağlar kəndində qalatipli yaşayış məskənləri formalaşmışdır. Hazırda bu kəndin ərazisində I Bəzəkli, II Bəzəkli, Qalacıq, Qarabağlar, I Suzqunlar, II Suzqunlar qalası adı ilə qeydə alınan müdafiə istehkamları mövcuddur. Bu abidələrin tədqiqi Orta Tunc dövründən başlayaraq Qarabağlarda memarlıq sənətinin inkişaf etdiyini təsdiq edir.

Tarixi mənbələrin verdiyi məlumata görə, Qarabağlar orta əsrlərdə Azərbaycanın əsas şəhərlərindən biri, mühüm ticarət və sənətkarlıq mərkəzi olmuşdur. Qarabağlar ətrafında böyük orta əsr yaşayış yerlərinin, karvansarayların aşkar olunması onun tarixi İpək Yolunun üzərində yerləşməsi ilə bağlıdır. Şəhərin Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdi. Şəhər, adından da göründüyü kimi, çoxlu bağ və yaşıllıqlarla örtülmüşdü. Bəzi mənbələrin məlumatlarına görə, şəhərin əsası XII əsrdə Şirvanşah Mənüçöhr tərəfindən qoyulmuşdur. Şəhərin Elxanilər dövründə (1256-1353) salınıb inkişaf etməsi ilə də bağlı məlumatlar vardır. Maraqlıdır ki, Qarabağlar türbəsinin də tikilməsi həmin dövrə təsadüf edir.

Türbənin Qarabağlar kəndində tikilməsi, şübhəsiz ki, bu kəndin Elxanilər dövlətinin mühüm iqtisadi-mədəni mərkəzlərindən biri olduğunu göstərir. Tarixi mənbələrdən məlumdur ki, qədim dövrdən başlayaraq orta əsrlərədək Orta Asiyada yaşayan türk tayfalarının Azərbaycana axınları davam etmişdi. XIII əsrdə monqollarla birgə hərəkət edən türk tayfalarının böyük bir qismi Azərbaycanda məskunlaşmışdı.Tədqiqatçıların fikrinə görə, "Qarabağlar" sözü qədim türk tayfası olan kəngərlərin bir qolunun adı ilə bağlıdır. X əsr müəllifi Konstantin Sibirdə yaşayan kəngərlərin bir tayfasının "qarabay" adlandığını qeyd etmişdir. Beləliklə, Qarabağlar tayfası kəngərlərin bir qolu hesab olunur. Bu tayfaların Azərbaycan xalqının formalaşmasında böyük rolu var. Övliya Çələbi "Səyahətnamə" əsərində Qarabağlar kəndini belə təsvir edir: "Bu şəhərin özülünü Mənüçöhr qoyub. Şəhər çox qədimdir. İndi Naxçıvan torpağında ayrıca sultanlıq təşkil edir. III Mehmet zamanında türklərin əlindən çıxaraq farsların ixtiyarına keçib. Əmir Teymur Qarabağlarda böyük bir qoşun ilə beş ay qışlağa qalıb. Şəhər çox abaddır, ətrafında ucsuz-bucaqsız münbit düzənlik yerləşir. Bizim xidmətçilər şəhərin içində 40-a qədər minarə sayıblar. Şükür Allaha, bu şəhərdə iqlimin və suyun yaxşılığı bizim əhvalımızı qaydaya saldı. Deyilənlərə görə, burada bağı və üzümlükləri olan 10 minə qədər ev, 70 mehrab, minarəli 40 cami var. Karvansaray, hamam və bazarlar da çoxdur. Onların sayı artmaqda davam edir. Bura bolluq diyarıdır. Şəhərdə gəzərkən bir bağban bizə 25 çeşid dadlı armud gətirdi. Bunları yeyərkən ağzında dondurma hiss edirsən. Yaqut rəngli nar yetişir. İrəvan düyüsündən bişirilən plov çox dadlıdır".

Qarabağlar Türbə Kompleksi qoşa minarə, onlar arasındakı baştağ, qoşa minarələrə birləşən dini binanın qalıqları və türbədən ibarətdir. Mütəxəssislər qoşa minarələrin XII-XIII əsrlərdə, baştağın isə XIV əsrdə tikildiyini qeyd etmişlər. Qoşa minarələrin və baştağın müxtəlif dövrlərə aid olması onların tikinti texnikasından da aydın görünür. Baştağın minarələrə sonradan əlavə edildiyi aydın şəkildə seçilir. "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi olmuş M.Mirheydərzadənin fikrincə, qoşa minarəli baştağın üzərində ərəb dilində "Allahın bu nişanəsi türkmən Quti xatındır" sözləri yazılmışdır. Bəzi əsərlərdə Quti xatının Hülakü xanın arvadı olduğu qeyd edilmişdir. Lakin tədqiqatçıların fikrinə görə, baştağda adı xatırlanan Qudi xatın, yaxud Qoday xatın, ola bilsin ki, Abaqa xanın (1265-1282) arvadı olmuş Qoday xatındır. Üslub və tikinti texnikası xüsusiyyətlərinə görə, türbənin tikilmə tarixi Elxani hökmdarı Əbu Səid Bahadır xanın hakimiyyəti illərinə (1319-1335-ci illər) aid edilir.

Qarabağlar türbəsi sərdabə və yerüstü xatirə abidəsindən ibarətdir. Sərdabə on iki bucaqlı olub divarları daşdan, günbəzi isə kərpicdən inşa edilmişdir. Türbənin yerüstü hissəsi daş kürsülük üzərində inşa olunan 12 yarımsilindrdən ibarətdir. Türbənin səthi firuzəyi rəngli kaşılarla həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir. Yarımsilindrlərin üzərində içərisində ərəb əlifbası ilə "ləiləhəilləllah Məhəmmədən Rəsulallah" (Allahdan başqa Allah yoxdur, Məhəmməd (s.ə.v.) onun rəsuludur) kəlməsi həkk edilən kvadratlar dəfələrlə təkrar olunmuşdur. Bu tip ornamentdən 1322-ci ildə inşa olunan Bərdə türbəsində də istifadə edilmişdir. Elə buna görə də bəzi tədqiqatçılar Qarabağlar türbəsi ilə Bərdə türbəsinin memarının eyni şəxs olduğunu bildirmişlər. Lakin qeyd etməliyik ki, Qarabağlar türbəsi konstruksiyası ilə fərqlənir. Türbənin özünəməxsus memarlıq xüsusiyyətlərindən biri 4 baştağlı olmasıdır. Bu baştağlar şimal, cənub, qərb və şərq istiqamətlərinə, dünyanın dörd tərəfinə yönəlmiş və türbənin görünüşünün mükəmməlliyini təmin etmişdir. Ehtimal ki, türbənin dörd baştağlı quruluşu əski inanclarla bağlı olmuşdur. Baştağların səthi kaşılar vasitəsilə həndəsi və nəbati üslubda naxışlanmışdır. Türbənin gövdəsini təşkil edən yarımsilindrlərin yuxarı hissəsində kaşılarla işlənmiş kitabələrin qalıqları saxlanmışdır. Ehtimal ki, bu kitabələr "Qurani-Kərim"dən götürülmüş kəlmələrdir. Memarlıq abidələrində və qəbirüstü monumental tikintilərdə bu tip kitabələrə rast gəlinir. Qarabağlar türbəsi konusvarı örtüyə sahib olmuşdur. Mütəxəssislərin fikrinə görə, bu örtük türbənin quruluşuna uyğun olaraq, on iki yarımsilindrin birləşməsi şəklində olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamından keçən müddət ərzində Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə Qarabağlar Türbə Kompleksində aparılacaq bərpa işlərinin elmi layihəsini hazırlamışdır. Artıq bərpa işlərinə başlanılmışdır.

***Son illər Naxçıvanda bəşər tarixinin öyrənilməsi üçün böyük əhəmiyyəti olan xeyli yeni abidələr aşkar olunmuşdur ki, bu da Naxçıvanın tarix və mədəniyyət abidələrinin tədqiqinə dövlət qayğısının ildən-ilə artması ilə bağlıdır. Abidələrimizin tədqiqi göstərir ki, Naxçıvan müxtəlif dövrlərdə qədim mədəniyyətlərin beşiyi olmuşdur. Bu ərazi qədim insanların ehtiyac duyduğu daşduz, mis, mərgümüş, sürmə, gümüş və qızıl yataqları ilə zəngindir. Araz çayına qovuşan Naxçıvançay, Arpaçay, Əlincəçay və Gilançay vadilərinin məhsuldar torpaqları əkinçilik və maldarlıq üçün əlverişlidir.***

# *Qızqalada* aparılan tədqiqatlar zamanı Naxçıvanın tarixi ilə bağlı yeni faktlar aşkara çıxarılıb



*Qız qalasının e.ə. III minilliyin sonuna aid qala divarı*



*Qız qalasının e.ə. II minilliyə aid qala divarı*

Arxeoloji tədqiqatlar sübut edir ki, Azərbaycanda ilkin qala-şəhərlərin formalaşdığı əsas regionlardan biri Naxçıvan ərazisi olmuşdur. Naxçıvanda qala-şəhərlərin e.ə. III minillikdə, yəni beş min il bundan əvvəl formalaşdığı arxeoloji araşdırmalarla təsdiq edilmişdir.

Bu tip qala-şəhərlərdən biri Şərur rayonunda, Arpaçay vadisində, Dizə kəndinin şimalında yerləşən Qız qalası yaşayış yeridir. Yaşayış yerində arxeoloji tədqiqatlar 2014-cü ildə başlanmışdır. Tədqiqat zamanı yaşayış yerinin uzun müddət Orta Tunc dövrünün erkən mərhələsindən Dəmir dövrünədək məskunlaşdığı müəyyən olunmuşdur. Orta Tunc dövrünə aid yaşayış yerinin sahəsi 13,6 hektar, Dəmir dövrü yaşayış yerinin sahəsi isə 80 hektardır. 2014-2016-cı illərdə aparılan tədqiqatlar zamanı yaşayış yerinin Orta Tunc dövrü təbəqəsi öyrənilmişdir. Orta Tunc dövründən məskunlaşan bu yaşayış yerinin sahəsi tədricən artmışdır. Müəyyən edilmişdir ki, bu yaşayış yerinin əsas mərkəzi Arpaçay vadisində və onun yaxınlığındakı kiçik yaşayış məntəqələri olmuşdur. Ətrafdakı yaşayış məskənlərində mədəni təbəqənin az (50 sm) yığılmasına baxmayaraq, mərkəzi hissədə təbəqənin qalınlığı 2,5-3 metr arasındadır. Qızqala yaşayış yerində Orta Tunc dövrünə aid iki qala divarı aşkara çıxarılmışdır. Bu qala divarlarının biri irihəcmli daşlardan inşa olunmuşdu və ilk baxışda Dəmir dövrünün siklop tikintilərini xatırladırdı. Lakin karbon analizlər onun Orta Tunc dövrünün erkən mərhələsinə – e.ə. 2135-ci ilə aid olduğunu göstərmişdir. 2016-cı ildə aparılan araşdırmalar qala divarına birləşik binaların da mövcud olduğunu təsdiq etmişdir. Lakin qala divarının hələlik yalnız bir qismi aşkar olunmuşdur. İndiyədək Yaxın Şərq və Cənubi Qafqazda e.ə. III minilliklə tarixlənən qala divarları aşkar edilmədiyindən bu fenomenal hadisə regionun tarixində inqilab kimi dəyərləndirilə bilər. Qeyd etmək istərdik ki, Orta Tunc dövrünə aid qalatipli yaşayış yerləri Naxçıvan üçün xarakterikdir. Bu tip müdafiə tikintilərinin mövcudluğu e.ə. III minillikdə Naxçıvan ərazisində böyük hərbi potensiala malik güclü tayfa ittifaqının formalaşdığını təsdiq edir.

İkinci qala divarı Orta Tunc dövrü təbəqəsinin üst qatında aşkar olunmuşdur. 2014-2016-cı illərdə aparılan qazıntılar zamanı müdafiə divarının böyük bir qismi aşkar edilmişdir. Bu divar yanlarda iri daşlardan inşa olunmuş, həmin daşların arası isə kiçikhəcmli daşlarla doldurulmuşdu. Tədqiqat zamanı divarın qazıntı sahəsində aşkar olunan qərb hissəsinin uzunluğu 6 metr, eni bəzi yerlərdə 1,8 metr, bəzi yerlərdə isə 1 metr arasında idi. Müdafiə divarının inşası nizamsız quruluşu ilə fərqlənirdi. Divarın alt qismindən götürülən kömür analizi bu divarın e.ə. II minilliyin ortalarında, e.ə. 1450-ci ildə inşa olunduğunu təsdiq etmişdir. Lakin müdafiə divarından aşağıda, təqribən, 1 metr qalınlığında mədəni təbəqə vardır. Bu, onu göstərir ki, müdafiə divarı Orta Tunc dövrünün müəyyən mərhələsində inşa olunmuşdur.

Qız qalası yaşayış yerində Orta və Son Tunc dövrü təbəqəsinin üzərində qalın orta əsr təbəqəsinin (5-6 m) mövcudluğu qazıntıları genişləndirməyə imkan vermir. Buna görə də Orta Tunc dövrünün erkən mərhələsinə aid strukturları aşkar etmək mümkün olmamışdır. Lakin aparılan araşdırmalar zamanı aşkar olunan tikinti qalıqları qala divarına birləşik, düzgün olmayan dördkünc formalı yaşayış binalarından istifadə olunduğunu göstərir. Bu otağın yaxınlığında tuf daşından hazırlanmış dabana daşının aşkar olunması vahid ox ətrafında dönən qapıların olduğunu deməyə əsas verir. Lakin burada tikintilər yaxşı saxlanmadığından evlərin formasını yalnız döşəmə qalıqlarına əsasən müəyyən etmək mümkündür. Döşəmə qalıqları dördkünc və dairəvi evlərdən istifadə olunduğunu göstərir. Şübhəsiz ki, dairəvi evlər yardımçı məqsəd üçün istifadə edilmişdir. Bu yaşayış binalarının forması birinci sahədən aşkar olunan tikinti qalıqları ilə daha yaxşı təmsil olunmuşdur. Bu sahədə evlərdən birinin içərisindəki ocaqdan götürülən kömür qalıqlarının analizi e.ə. 1939-1748-ci illəri göstərmişdir. Bu evin bünövrəsi irihəcmli daşlardan inşa edilmişdir. Onun yalnız iki divarı – qərb və cənub divarları aşkar olunmuşdur. Bu sahədə aşkar olunan ikinci otaq tam dördkünc formalıdır. Onun içərisindəki ocaqdan götürülən kömürün analizi e.ə. II minilliyin ortalarını, daha doğrusu, e.ə. 1451-ci ili göstərmişdir. Fikrimizə görə, bu yaşayış evləri müxtəlif dövrlərdə istifadə olunmuşdur. Evin içərisində müxtəlif dərinlikdə ocaqlara rast gəlinməsi də bunu təsdiq edir.

Qız qalası yaşayış yerinin alt təbəqələrində aparılan qazıntılar zamanı qəbir abidələrinə rast gəlinməsi olduqca maraqlıdır. Bu, yaşayış yerləri ilə qəbiristanlıqların iç-içə olduğunu təsdiq edir. Bilavasitə yaşayış yerinin yaxınlığında aşkar olunan bu qəbirlərin birindən Orta Tunc dövrünün erkən mərhələsi üçün xarakterik olan boyalı qablar aşkar olunmuş, lakin insan skeleti aşkar edilməmişdir. İkinci qəbirdə isə insan skeletinə aid qalıqlar aşkar olunmuş, ancaq maddi-mədəniyyət nümunələri tapılmamışdır.

Qız qalası yaşayış yeri və onun ətrafındakı kurqanlarda aparılan araşdırmalar onların vahid bir kompleks təşkil etdiyini göstərir. Qızqala yaşayış yerində aparılan araşdırmalar zamanı Orta Tunc dövrünə aid 2,5-3 metr qalınlığında mədəni təbəqənin varlığı müəyyən olunmuşdur. Bu, Naxçıvanda I Kültəpə, II Kültəpə və Qızılburundan sonra dördüncü mühüm abidədir. Yaşayış yeri boyalı qablarla fərqlənən Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu bir daha təsdiq edir. Qızqala yaşayış yerində, həmçinin Bəzəkli, Qazançıqala, Qurddağ, Göynük qalası və digər abidələrdə müdafiə divarlarının aşkar olunması Orta Tunc dövründə Naxçıvanda böyük hərbi potensiala malik olan tayfaların yerləşdiyini təsdiq edir. Bu tayfaların bir qismi oturaq, digər bir qismi yarım köçmə maldarlıqla məşğul olmuşdur. Qızqala ətrafındakı kurqanlardan skelet qalıqlarının aşkar olunması isə boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verəcəkdir. 2016-cı ilin birinci yarısında bu abidələrin tədqiqi zamanı yeni faktlar aşkar olunmuşdur. İnsan skeletlərinin dişlərindən götürülən izotopların analizi zamanı müəyyən olunmuşdur ki, Arpaçay vadisində məskunlaşan Orta Tunc dövrü tayfaların məskəni Naxçıvandır. Onlar yaz və yayda Arpaçay vadisi ilə indiki Ermənistan ərazisinə doğru hərəkət edərək yaylaqlardan istifadə etmiş və geri dönərək bu vadidə – Qızqala yaşayış yerində yaşamışlar. E.ə. II minilliyin ortalarında Yaxın Şərq və Cənubi Qafqazda baş verən ictimai-siyasi proseslər, tayfalararası ziddiyyətlərin artması Arpaçay vadisində, Şərur düzündə yaşayan tayfaları müdafiə mövqeyi tutmağa məcbur etmiş, yaşayış yerində iri daşlardan qala divarları inşa olunmuşdur. Bu tip qala divarlarına Cənubi Qafqazın digər Orta Tunc dövrü yaşayış yerlərində rastlanmaması Naxçıvanda yaşayan tayfaların regionun siyasi həyatında mühüm rol oynadığını göstərir.

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

***...Deyir, atlara böyük marağım olub. Türkiyə Respublikasında bu sahə üzrə təlim görmüşəm, bir neçə il çalışıb təcrübə əldə etmişəm. Elə bu atçılıq klubunda da fəaliyyətimiz muxtar respublikada bu sahəni inkişaf etdirmək, müxtəlif cinslərdən olan atların sayını artırmaq, onları yarışlara hazırlamaqdan ibarətdir. Bunu Naxçıvan Atçılıq Klubunun təlimatçısı Urman Rəhimov deyir.***

## At haqq-ədalət uğrunda savaşan bir xalqın mübarizlik simvoludur



“Yarandığı vaxtdan qısa müddət keçməsinə baxmayaraq, klubumuzun 300-dən çox üzvü var. Ata marağı olanlar çoxdur. Naxçıvana gələn turistlər də bu mərkəzə böyük maraq göstərirlər. Məsələn, dünən burada Hollandiyadan gələn qonaqlarımız var idi. Buradakı atlarla çox maraqlandılar. Qonaqlardan ata minməK arzusunda olanlar az deyildi. Klubumuzun öz qaydaları var. Məsələn, sağlamlıq imkanları məhdud uşaqlar və təhsildə fərqlənənlər üçün atlardan istifadə pulsuzdur”. Bu fikirləri isə Naxçıvan Atçılıq Klubunun direktoru Abbas Məmmədova məxsusdur.

Naxçıvan Atçılıq Klubu 2015-ci ildə yaradılsa da, bura yolum düşməmişdi. Babək rayonunun Badaşqan və Yarımca kəndlərinin arasındakı ərazidə yerləşən bu atçılıq mərkəzində gördüklərimiz bizim üçün də maraqlı oldu. Əlbəttə, muxtar respublikada ilk dəfə belə klubun yaradılması hamımızı sevindirir. Doğrudur, Naxçıvanda, ümumilikdə isə ölkəmizdə atçılığın inkişaf etdirilməsi çox qədim dövrlərə gedib çıxır. Ancaq etiraf edək ki, sovet dövründə, eləcə də son illərədək bu sahədə inkişaf daha çox fərdiçilik üzərində qurulub, müxtəlif cinslərin yetişdirilməsi, sayının artırılması, daha geniş məqsədlər üçün istifadəsi diqqətdən kənarda qalıb. Muxtar respublikamızda ötən il yaradılmış atçılıq klubu ilə bağlı söhbətə keçməzdən əvvəl istərdik ölkəmizdə atçılığın inkişaf tarixinə, eləcə də bu sahənin perspektivli tərəflərinə ümumi bir nəzər salaq.

Əvvəlcə qeyd etmək lazımdır ki, atçılığın inkişafı Azərbaycanda çox qədim dövrlərdən başlayıb. Herodot yazırdı: “Midiyada “Nise” adlanan geniş bir vadi var ki, burada çox şahanə atlar saxlayırlar”. Arxeoloji mənbələr göstərir ki, hələ Tunc dövrünün son mərhələsində Azərbaycan ərazisində yaşayan insanlar burada atları yəhərləyib, onları özləri üçün etibarlı dost sayıblar. Alman akademik Kaufman respublikamızın ərazisindən tapılan yüyənləri eramızdan öncə I minilliyin əvvəllərinə aid edir. Həmin dövrə məxsus tapıntı olan yəhər qaşı, tunc zınqırovlar və digər əşyalar sübut edir ki, Azərbaycan atçılığının sorağı çox-çox əski çağlardan gəlir. Tarixi sənədlər vətənimizin Şərqdə ən böyük atçılıq ölkələrindən, atların ən qədim əhilləşdirmə ocaqlarından olduğunu göstərir. Vaxtilə Pənah xan, Mehdiqulu xan və Cəfərqulu xanın Qarabağ bölgəsindəki atçılıq zavodları var idi. Naxçıvanda da Kəngərli xanlarının böyük at ilxıları olub. Tarixçi alim Musa Quliyev yazır ki, Kəngərli süvarilərinin döyüş atları Batabatın allı-güllü çəmənliklərində qayğı ilə bəslənirdi və bu atların əksəriyyətini Qarabağ cinsindən olan atlar təşkil edirdi. Qarabağ atlarının məşhurluğundandır ki, böyük rus şairi Lermontov “Demon” poemasında bu atın tərifini belə verir:

*Yəhərə salınmış ipəkdən naxış,*
*Qantarğası ondan geri qalmamış.*
*Köhləni altında cilov gəmirir,*
*Bu at Qarabağın yetirməsidir.*

Cəfərqulu xan deyərmiş ki, Qarabağ atı çox qədimlərdən biz Kəngərli süvarilərinin döyüş atı olub. Onun gözəl quruluşu və möhkəm bədəni var. Atın əzələləri möhkəm və quru, dırnaqları çox möhkəmdir. Dördayaq çapmada heç bir at onlara çatmaz. Cəldliyinə görə dağda hərəkətləri yaxşıdır.

Maraqlı faktlardan biri də odur ki, keçmiş SSRİ-də atçılıq üzrə yeganə ixtisaslı kadrlar Azərbaycanda – Gəncədə yerləşən Kənd Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Aqrar Universiteti) hazırlanırmış. Lakin ötən əsrin 90-cı illərindən sonra sözügedən sahə inkişaf etdirilmədiyindən baxımsızlıq cins atların kökünün kəsilməsi, ata marağın azalması ilə nəticələnib. Bununla yanaşı, Atçılıq fakültəsi də tələbə qəbulu olmadığından bağlanıb.

...Atçılıq mərkəzində olarkən öyrəndik ki, hazırda burada müxtəlif cinslərə məxsus atlar saxlanılır. Ərəb, ingilis, Qarabağ atları ilə yanaşı, burada yerli Naxçıvan atları da var. Təlimatçı Urman Rəhimov dedi ki, at yarışlarında, əsasən, ərəb və ingilis atlarından istifadə olunur. Ərəb atları 3 yaşından, ingilis atları isə 2 yaşından qaçmağa başlayır. İngilis atlarının təlimlərə daha tez öyrəşdiyini bildirən həmsöhbətim qeyd etdi ki, atları yetişdirmək, onları yarışa hazırlamaq xüsusi qulluq və təcrübə tələb edir. Məsələn, burada hər gün atları səhər idmanına çıxarırıq, onlara təlimlər keçirik. Sonra isə onları 2000 metr məsafədə yavaş, 20 gündən bir isə sürətli qaçışa cəlb edirik.

Klubun direktoru Abbas Məmmədov isə hazırda 45 atın saxlanıldığı mərkəzdə bütün işlərin təlimata uyğun aparıldığını bildirdi: “Heyvanlara qulluq məqsədilə burada 1 baytar həkimi, 3 mehtər və 1 təlimatçı fəaliyyət göstərir. Bundan əlavə, 3 nəfər at minən jokeyimiz var. Hansı ki bura at minmək üçün gələnləri həmin jokeylər təlimatlandırırlar. At həvəskarları ilə söhbət aparıldıqdan sonra təhlükəsizliklə bağlı təlimat kitabında qeydiyyat aparılır, ondan sonra iştirakçı meydana buraxılır və təbii ki, burada da təlimatçı və jokeylər tərəfindən ona nəzarət olunur”. Müsahibimiz söhbət zamanı maraqlı faktlara toxundu. Bildirdi ki, fəaliyyətimizdə əsas məqsədimiz muxtar respublikada atçılığı inkişaf etdirmək, bu idman növünün kütləviliyini artırmaq, müxtəlif el şənliklərində, oyun və tamaşalarda atların iştirakını təmin etmək və bununla da, milli dəyərlərimizin yaşadılmasına töhfə vermək, eləcə də bu imkanlardan turizmin inkişafı üçün yararlanmaqdır. Abbas müəllim atların insanların sağlam həyat tərzi keçirməsinə də böyük fayda verdiyini bildirdi. Dedi ki, ta qədimlərdən Şərq aləmində bir sıra xəstəliklərin müalicəsində at minmək əsas metodlardan sayılıb. Məsələn, müasir tibb aləminə də məlumdur ki, prostat xəstəliklərinin müalicəsində, böyrək və öd kisələrində olan daşların təbii üsulla salınmasında at minməyin böyük əhəmiyyəti var. Maraqlı burasıdır ki, ötən dövrdə bu xəstəliklərlə bağlı (xüsusilə böyrək və öd daşlarının salınması məqsədilə) mərkəzə 30-dan çox adam müraciət edib. Abbas müəllim qeyd etdi ki, həkim məsləhəti və göndərişi ilə bura gələn xəstələr çox qısa müddətdə bunun nəticəsini görüblər. Mahir Səfərov, Qadir Məmmədov, Əziz Əliyev kimi yerli sakinlər məhz bu prosesi keçməklə sağlamlıqlarına qovuşublar. Mərkəzdə insanların istirahəti üçün də lazımi şərait yaradılıb. Burada milli mətbəximizin müxtəlif təamlarından dadmaq, soyuq və isti içkilərdən istifadə etmək mümkündür. Son vaxtlar mövsümlə əlaqədar istirahət üçün buranı seçənlərin sayı artıb.

Mərkəzdə olarkən öyrəndik ki, atçılığın inkişaf etdirilməsində əsas məsələlərdən biri də onların sayının artırılmasıdır. Burada saxlanılan atlardan bu il 9 bala alınıb ki, onlardan 7-ni xarici cinslər təşkil edir. “Qarabağ” atlarının sayının çoxaldılması da diqqət mərkəzində saxlanılır. Yeri düşmüşkən qeyd edək ki, atçılığın inkişaf etdirilməsi ilə bağlı ölkəmizdə proqram da var. Belə ki, “Atçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli Fərmanının 1.4-cü bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2007-ci il 8 oktyabr tarixli qərarı ilə “Atçılığın inkişafı üzrə Proqram” təsdiq edilib. Proqramda qeyd olunur ki, hazırda dünya üzrə 260 cins atın ikisi Azərbaycana məxsusdur. Bunlar “Dilbaz” və “Qarabağ” atlarıdır. Habelə proqramda elmi-tədqiqat işlərinin aparılması, mütəxəssislərin hazırlanması, müvafiq kitabların buraxılması, cins atların pasportlarının, qeydiyyat formalarının, həmçinin normativ-hüquqi sənədlərin hazırlanması, genetik fondun qorunması nəzərdə tutulur. Bir çox tarixi faktlar göstərir ki, dünyada ən geniş yayılmış ərəb atlarının, təmizqanlı ingilis minik atlarının cins kimi formalaşmasında Azərbaycan atlarının da müəyyən rolu olub. Ən qədim dövrlərdən Azərbaycandan İrana, ərəb ölkələrinə, Rusiyaya, Avropaya xeyli sayda madyanlar və törədici ayğırlar aparılıb. Rus hərbçisi Çudovski öz xatirələrində yazır: “Bizim hərbi dəstələrimiz Zaqafqaziyada olduğu zaman bütün ordu alaylarında zabitlərdə çoxlu Qarabağ atları var idi. Bu atlar bütün Zaqafqaziya yürüşlərində, habelə İran və Türkiyə sərhədləri boyu yürüşlərdə çox yaxşı davam gətirirdilər. Qarabağ atı yerli şərait üçün çox qiymətlidir. İsti havada az tərləyir, halbuki yanaşı gedən Kabardin atı tamamilə tər içində olur”.

***Bəli, xalqımızın ata olan sevgisi, qədimdən atın şərəf rəmzi kimi qəbul edilməsi, ölkəmizin əlverişli təbii-coğrafi şəraiti, idmana və qeyri-neft sektoruna diqqət və qayğının artması bu sahənin inkişaf etdirilməsinə zəmin yaradır. Bu isə onu göstərir ki, atçılıq ənənələri hər bir xalqa məxsus olan mədəniyyət deyil. Ona görə də ölkəmizdə bir neçə minillik yaşı olan atçılıq mədəniyyətimizin və tariximizin bir hissəsidir. Əbəs yerə xalqımızın dilində “At igidin yaraşığıdır”, “At muraddır” kəlmələri yaranmayıb. Xalq qəhrəmanlarımızdan Koroğlunu, Babəki, Qaçaq Nəbini heç zaman atsız təsəvvür etməmişik. Buna görə də at həm də haqq-ədalət uğrunda savaşan bir xalqın mübarizlik simvoludur.***

✍ **Səbuhi HƏSƏNOV**

***Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzində idman federasiyaları yetirmələrinin istirahətləri davam edir.***

## Ağbulaq İstirahət Mərkəzinin növbəti qonaqları atıcılar olub

Cari il mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən hər həftə idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur.

İyulun 17-18-də isə Ağbulaq İstirahət Mərkəzi növbəti qonaqlarını – Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının 45 idmançısını qəbul edib.

İstirahət günləri çərçivəsində konsert proqramları təşkil edilib, vətənpərvərlik mövzusunda filmlər nümayiş olunub, müxtəlif idman yarışları keçirilib. Bundan başqa, onların Şahbuz rayonu ərazisində olan muzeylərə və digər mədəniyyət müəssisələrinə, Batabat yaylağına gəzintiləri də təşkil edilib.

İdmançılar iki gün ərzində əyləncəli oyunlarda iştirak edib, vətənpərvərlik mövzusunda mahnılar dinləyiblər. Onlar arasında təşkil edilən futbol yarışı da yaddaqalan olub.

Qeyd edək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının təşkilatçılığı ilə həyata keçirilib.

## Bənəniyar kəndində seminar keçirilib

***Culfa rayonunun Bənəniyar kənd tam orta məktəbinin idman zalında Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının Culfa rayonundakı kikboksinq bölməsinin 30-a yaxın idmançısının iştirak etdiyi texniki-taktiki seminar keçirilib.***

Seminar Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi, idman ustası, beynəlxalq dərəcəli hakim Hidayət Şabanov tərəfindən aparılıb.

Seminardan öncə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov və Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev çıxış edərək seminarın keçirilməsinin məqsədi haqqında məlumat veriblər.

Qeyd edək ki, seminar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Şərq Döyüşü Sənəti Federasiyasının birgə tədbirlər planına əsasən keçirilib.

## Daha bir kənd stadionunda yenidənqurma işlərinə başlanılıb

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı, kütləvi hal alması və gənclər arasında təbliği üçün ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublikanın şəhər və rayonlarında, həmçinin kəndlərində yeni idman obyektləri tikilir, mövcud idman qurğuları yenidən qurularaq istifadəyə verilir.

Bu tədbirlərin davamı kimi Culfa rayonunun Bənəniyar kəndində yeniyetmə və gənc futbolçuların daha mükəmməl stadionda məşq etmələri, futbol oynamaları üçün stadionda yenidənqurma işləri aparılır. Stadionun uzunluğu 86, eni 52 metrdir. Yararsız vəziyyətdə olan meydançaya xüsusi ot toxumu səpilib, yeni oyun qapıları qoyulub. Stadionun suvarılması üçün meydanın ərazisinə su xətti çəkilir. Hazırda stadionun ərazisinə bordür və daş döşənilir. Oyunların rahat izlənilməsi üçün stadionda oturacaqlar quraşdırılacaq.

Stadionun ərazisinə müxtəlif tinglər əkiləcək və ətrafında idman qurğuları quraşdırılacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Həsən Əliyev küçəsi, bina 11, mənzil 15-də yaşamış İbrahimov Hüseyn Məmmədəli oğluna məxsus 5208 inventar nömrəli texniki pasport və 02/73 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Şəhriyar kənd sakini Sadiqov Muxtar Məmməd oğluna məxsus JN-183$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Xudaverdiyev Yusif Şakir oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Nehrəm kəndində yaşamış Ələkbərov Cəfər Qənbərəli oğlunun adına olan JN-164$^{B}$ inventar nömrəli, 10300058 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 552